## Niyyət müqaviləsi №

**Bakı şəhəri** "13" 01 2023 il

Bu müqavilə bir tərəfdən Nizamnaməsi əsasında fəaliyyət göstərən Azərbaycan Dövlət İqtisad Universiteti PHŞ-nin (UNEC) iqtisadi məsələlər üzrə prorektoru Nəsimi Zakir oğlu İsmayılov şəxsində (bundan sonra UNEC) digər tərəfdən isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs Əflatun Hacıbaba oğlu Məmmədov (VÖEN: 1004182082) (bundan sonra fiziki şəxs adlanacaq) şəxsində aşağıdakı şərtlərlə imzaladılar:

### 1. Müqavilənin predmeti

1.1. Bu müqavilə "fiziki şəxs" Əflatun Hacıbaba oğlu Məmmədovun istifadəsində olan Bakı şəhəri, Binəqədi rayonu, M.Rəsulzadə ŞTQ 22-ci Dağlıq ev 22, Dağlıq 1 döngə küçəsi, 10 saylı ünvanında yerləşən 16 otaqdan, 65 yataqdan ibarət "MARO" tələbə yataqxanasında UNEC-in yönəltdiyi təhsilalanları tələbə yataqxanasında boş yerlər olduqda yataqxana ilə təmin etmək məqsədilə bağlanır.

1.2. "MARO" tələbə yataqxanasında boş yer olduqda UNEC tərəfindən tövsiyyə edilmiş tələbə ilə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs Əflatun Hacıbaba oğlu Məmmədov arasında kirayə müqaviləsi imzalanır və onlar arasında yataqxanada qalma ilə bağlı yaranan bütün münasibətlər həmin müqavilə ilə tənzimlənir.

### 2. Tərəflərin hüquq və vəzifələri

**2.1. UNEC-in hüquqları:**

2.1.1. UNEC tövsiyyə etdiyi təhsilalanların maddi məsuliyyətini daşımır;

2.1.2. UNEC təhsilalanların yataqxana qaydalarına əməl etməmələri üzrə məsuliyyət daşımır;

2.1.3. UNEC təhsilalanı ilə fiziki şəxs arasında bağlanmış kirayə müqaviləsinin bir nüsxəsini fiziki şəxsdən tələb edə bilər;

2.1.4. Qanunvericiliyin tələblərindən irəli gələn digər hüquqlar.

**2.2. UNEC-in vəzifələri:**

2.2.1. UNEC yataqxanada yaşayış yeri ilə təmin olunmağa ehtiyacı olan təhsilalanlarını fiziki şəxs Əflatun Hacıbaba oğlu Məmmədova məxsus "MARO" tələbə yataqxanası haqqında məlumatlandırır və yerləşdirilməsi üçün tövsiyyə edir;

2.2.2. UNEC tərəfindən tövsiyyə edilmiş təhsilalanların yataqxanada yaşayış yeri ilə təmin edilib edilməməsi ilə bağlı məlumat əldə edir.

**2.3. Fiziki şəxsin hüquqları**

2.3.1. UNEC tərəfindən tövsiyyə edilmiş təhsilalanlarla "MARO" tələbə yataqxanasında boş yer olduqda Kirayə müqaviləsi bağlamaq;

2.3.2. Qanunvericiliyin tələblərindən irəli gələn digər hüquqlar.

**2.4. Fiziki şəxsin vəzifələri:**

2.4.1 UNEC tərəfindən tövsiyyə edilmiş təhsilalanları tələbə yataqxanasında boş yer olduqda yataqxana ilə təmin etmək məsələsinə baxmaq;

2.4.2 Təhsilalanlarla kirayə müqaviləsi bağlamaq (maddi məsuliyyət barədə müddəa nəzərdə tutulmaqla);

2.4.3 Kirayə müqaviləsi bağlanmış təhsilalanları Yataqxana qaydaları ilə tanış etmək;

2.4.4 Təhsilalanların həyat və sağlamlığının qorunması üçün yataqxanada qüvvədə olan qanunvericiliyin tələblərinə, müvafiq standart və normalara uyğun şəraiti təmin etmək;

2.4.5 Qanunvericiliyin tələblərinə uyğun digər vəzifələr.

3. **Mübahisələrin həlli**

3.1 Tərəflər arasında yaranan fikir ayrılığı və ya mübahisələr bir qayda olaraq danışıqlar vasitəsilə həll edilir;

3.2 Tərəflər arasında yaranan fikir ayrılığı və ya mübahisələrin danışıqlar vasitəsilə həll edilməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məhkəmə yolu ilə həll edilir.

3.3 Bu Müqavilə ilə tənzimlənməyən digər məsələlərin həllində Azərbaycan Respublikasının qanunvericiliyi rəhbər tutulur.

4. **Müqavilənin ləğvi və dəyişdirilməsi qaydaları və əsasları, tərəflərin məsuliyyəti**

4.1. Müqavilə Tərəflərin razılığı ilə və ya Tərəflərdən birinin tələbi ilə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulmuş qaydada və əsaslarla ləğv edilə bilər;

4.2. Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə müvafiq protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavələr və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab edilir.

5. **Yekun müddəalar**

5.1 Müqavilə imzalandığı gündən qüvvəyə minir və tərəflərin hər hansı birinin etirazı olmadığı müddətdə qüvvədədir;

5.2 Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib olunmuşdur və bir nüsxəsi UNEC-də, digər nüsxəsi isə "Fiziki şəxs"də saxlanılır.

6. **Tərəflərin ünvanları (hüquqi ünvanları) və rekvizitləri**

**Azərbaycan Dövlət İqtisad Universiteti PHŞ (UNEC):**

VÖEN: 1700091281
Ünvan/hüquqi ünvan:Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi 6
S.W.I.F.T: AIIBAZ2X
Bankın adı: "Kapital Bank" ASC-nin Səbail filialı
Bankın VÖEN-i: 9900003611
Bankın kodu: 200059
H/h: AZ96AIIB33010019443507362105
M/h: AZ37NABZ01350100000000001944

İsmayılov Nəsimi Zakir oğlu

İmzası: ____________________
M.Y.

**F/Ş Məmmədov Əflatun Hacıbaba (MARO)**

VÖEN: 1009182082
Ünvan: M.Rəsulzadə ŞTQ 22-ci Dağlıq ev 22, Dağlıq 1 döngə küçəsi, 10
SWIFT: AIIBAZ2X
Bank: "Kapital Bank" ASC-nin Əcəmi filialı
VÖEN: 9900037711
Kod: 201564
H/H: AZ77AIIB41040019442641884240
Müxbir hesab: AZ37NABZ01350100000000001944

Məmmədov Əflatun Hacıbaba oğlu

İmzası: ____________________
M.Y.